| 1.7.4.11 | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 1 103 520,0 | 1 103 520,0 | |
| 1.7.4.12 | Siyasi partiyalara verilən maliyyə yardımı | 4 000 000,0 | 4 000 000,0 | |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdiril-miş xərclər | Yerli xərclər |
| 1 | 2 | 3 | 4 | 5 |
| 1.7.4.13 | "Bakı Konqres Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti | 7 218 965,0 | 7 218 965,0 | |
| 1.7.4.14 | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu | 10 457 149,0 | 10 457 149,0 | |
| 1.7.4.15 | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 222 941,0 | 222 941,0 | |
| 1.7.4.16 | Yerli İcra hakimiyyəti orqanları | 1 601 774,0 | | 1 601 774,0 |
| 1.7.4.17 | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | 2 009 600,0 | 2 009 600,0 | |
| 1.7.4.18 | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir | 3 209 775,0 | 3 209 775,0 | |
| 1.7.4.19 | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsaitin ayrılması | 20 609 214,0 | 20 609 214,0 | |
| 1.7.4.20 | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 4 668 500,0 | 4 668 500,0 | |
| 1.8 | Mənzil və kommunal təsərrüfatı | 262 848 166,0 | 146 338 000,0 | 116 510 166,0 |
| 1.8.1 | Mənzil | 32 907 008,0 | | 32 907 008,0 |
| 1.8.1.1 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 32 907 008,0 | | 32 907 008,0 |
| 1.8.2 | Kommunal təsərrüfatı | 88 506 062,0 | 32 350 000,0 | 56 156 062,0 |
| 1.8.2.1 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 250 000,0 | 250 000,0 | |
| 1.8.2.2 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 6 100 000,0 | 6 100 000,0 | |
| 1.8.2.3 | "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinə verilən maliyyə yardımı | 26 000 000,0 | 26 000 000,0 | |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdiril-miş xərclər | Yerli xərclər |
| 1 | 2 | 3 | 4 | 5 |
| 1.8.2.4 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 56 156 062,0 | | 56 156 062,0 |
| 1.8.3 | Su təsərrüfatı | 52 500 000,0 | 52 500 000,0 | |
| 1.8.3.1 | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 4 500 000,0 | 4 500 000,0 | |
| 1.8.3.2 | "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə verilən maliyyə yardımı | 38 000 000,0 | 38 000 000,0 | |
| 1.8.3.3 | Su anbarlarının və hidroqovşaqların texniki təhlükəsizliyinin qiymətləndirilməsi və bu qəbildən olan digər tədbirlərin maliyyə təminatı | 10 000 000,0 | 10 000 000,0 | |
| 1.8.4 | Mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 88 935 096,0 | 61 488 000,0 | 27 447 096,0 |
| 1.8.4.1 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 3 000 000,0 | 3 000 000,0 | |
| 1.8.4.2 | Mənzil və kommunal təsərrüfatı sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 42 000 000,0 | 42 000 000,0 | |
| 1.8.4.3 | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsaitin ayrılması | 16 488 000,0 | 16 488 000,0 | |
| 1.8.4.4 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 27 447 096,0 | | 27 447 096,0 |
| 1.9 | Kənd təsərrüfatı | 943 035 597,0 | 943 035 597,0 | |
| 1.9.1 | Kənd təsərrüfatı tədbirləri | 496 283 297,0 | 496 283 297,0 | |
| 1.9.1.1 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 37 663 297,0 | 37 663 297,0 | |
| 1.9.1.2 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi | 441 150 000,0 | 441 150 000,0 | |
| 1.9.1.3 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi | 6 570 000,0 | 6 570 000,0 | |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdiril-miş xərclər | Yerli xərclər |
| 1 | 2 | 3 | 4 | 5 |
| 1.9.1.4 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (kənd təsərrüfatı heyvanlarının və bitkilərinin sığortalanması və Aqrar Sığorta Fondunun nizamnamə kapitalının formalaşdırılması) | 6 900 000,0 | 6 900 000,0 | |
| 1.9.1.5 | Kənd təsərrüfatı sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 4 000 000,0 | 4 000 000,0 | |
| 1.9.2 | Baytarlıq | 30 000 000,0 | 30 000 000,0 | |
| 1.9.2.1 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi | 30 000 000,0 | 30 000 000,0 | |
| 1.9.3 | Meliorasiya | 405 798 300,0 | 405 798 300,0 | |
| 1.9.3.1 | Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 405 798 300,0 | 405 798 300,0 | |
| 1.9.4 | Kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər | 10 954 000,0 | 10 954 000,0 | |
| 1.9.4.1 | Kənd təsərrüfatı sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 10 954 000,0 | 10 954 000,0 | |
| 1.10 | Ətraf mühitin mühafizəsi | 275 542 039,0 | 100 804 589,0 | 174 737 450,0 |
| 1.10.1 | Bioloji zənginliyin qorunması | 7 127 751,0 | 7 127 751,0 | |
| 1.10.1.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 580 454,0 | 580 454,0 | |
| 1.10.1.2 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti | 6 547 297,0 | 6 547 297,0 | |
| 1.10.2 | Hidrometeorologiya tədbirləri | 10 835 757,0 | 10 835 757,0 | |
| 1.10.2.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 644 550,0 | 644 550,0 | |
| 1.10.2.2 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometerologiya Xidməti | 10 191 207,0 | 10 191 207,0 | |
| 1.10.3 | Meşə təsərrüfatı | 13 391 883,0 | 13 391 883,0 | |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdiril-miş xərclər | Yerli xərclər |
| 1 | 2 | 3 | 4 | 5 |
| 1.10.3.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti | 13 391 883,0 | 13 391 883,0 | |
| 1.10.4 | Balıqçılıq və ovçuluq | 1 696 408,0 | 1 696 408,0 | |
| 1.10.4.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti | 1 696 408,0 | 1 696 408,0 | |
| 1.10.5 | Ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 232 760 240,0 | 58 022 790,0 | 174 737 450,0 |
| 1.10.5.1 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 7 100 000,0 | 7 100 000,0 | |
| 1.10.5.2 | "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinə verilən subsidiya | 33 000 000,0 | 33 000 000,0 | |
| 1.10.5.3 | Su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı bələdiyyələrə verilən maliyyə yardımı | 4 325 000,0 | 4 325 000,0 | |
| 1.10.5.4 | Ətraf mühitin mühafizəsi sahəsi üzrə yaşayış məntəqələrinə aid olan kommunal təyinatlı infrastrukturların bərpası, yenidənqurulması və abadlaşdırılması | 13 200 000,0 | 13 200 000,0 | |
| 1.10.5.5 | Ətraf mühitin mühafizəsi sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirləri | 397 790,0 | 397 790,0 | |
| 1.10.5.6 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 174 737 450,0 | | 174 737 450,0 |
| 1.10.6 | Ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 9 730 000,0 | 9 730 000,0 | |
| 1.10.6.1 | Ətraf mühitin mühafizəsi sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 9 730 000,0 | 9 730 000,0 | |
| 1.11 | İqtisadi fəaliyyət | 5 947 474 995,0 | 5 903 850 459,0 | 43 624 536,0 |
| 1.11.1 | Nəqliyyat və rabitə | 208 733 502,0 | 165 108 966,0 | 43 624 536,0 |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdiril-miş xərclər | Yerli xərclər |
| 1 | 2 | 3 | 4 | 5 |
| 1.11.1.1 | "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya | 10 010 000,0 | 10 010 000,0 | |
| 1.11.1.2 | "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya | 39 167 500,0 | 39 167 500,0 | |
| 1.11.1.3 | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 3 479 780,0 | 3 479 780,0 | |
| 1.11.1.4 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 10 831 686,0 | 10 831 686,0 | |
| 1.11.1.5 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 1 200 000,0 | 1 200 000,0 | |
| 1.11.1.6 | "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti (nizamnamə kapitalının artırılması yolu ilə borc öhdəliklərinin tənzimlənməsi) | 27 300 000,0 | 27 300 000,0 | |
| 1.11.1.7 | Nəqliyyat və rabitə sahələrində islahatların aparılması və digər tədbirlərin maliyyələşdirilməsi | 19 000 000,0 | 19 000 000,0 | |
| 1.11.1.8 | Kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 2 000 000,0 | 2 000 000,0 | |
| 1.11.1.9 | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsaitin ayrılması | 52 120 000,0 | 52 120 000,0 | |
| 1.11.1.10 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşdirilən müəssisə və təşkilatlar | 43 624 536,0 | | 43 624 536,0 |
| 1.11.2 | İqtisadi və kommersiya fəaliyyəti | 55 363 782,0 | 55 363 782,0 | |
| 1.11.2.1 | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 55 363 782,0 | 55 363 782,0 | |
| 1.11.3 | Tikinti və şəhərsalma | 5 036 561 290,0 | 5 036 561 290,0 | |
| 1.11.3.1 | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 061 290,0 | 1 061 290,0 | |
| 1.11.3.2 | Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 2 835 000 000,0 | 2 835 000 000,0 | |
| 1.11.3.3 | İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası | 2 200 000 000,0 | 2 200 000 000,0 | |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdiril-miş xərclər | Yerli xərclər |
| 1 | 2 | 3 | 4 | 5 |
| 1.11.3.4 | Müfəssəl ərazi planlaşdırılması sənədlərinin hazırlanması | 500 000,0 | 500 000,0 | |
| 1.11.4 | Geodeziya və faydalı qazıntılar | 15 100 000,0 | 15 100 000,0 | |
| 1.11.4.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 6 900 000,0 | 6 900 000,0 | |
| 1.11.4.2 | Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik | 8 200 000,0 | 8 200 000,0 | |
| 1.11.5 | Yanacaq və enerji kompleksi | 1 900 000,0 | 1 900 000,0 | |
| 1.11.5.1 | Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi | 1 900 000,0 | 1 900 000,0 | |
| 1.11.6 | İqtisadi fəaliyyət sahələri üzrə tətbiqi tədqiqatlar | 1 500 000,0 | 1 500 000,0 | |
| 1.11.6.1 | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 1 500 000,0 | 1 500 000,0 | |
| 1.11.7 | İqtisadi fəaliyyətlə bağlı digər xidmətlər | 628 316 421,0 | 628 316 421,0 | |
| 1.11.7.1 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 43 830 821,0 | 43 830 821,0 | |
| 1.11.7.1.1 | Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələrinin saxlanılması | 3 900 000,0 | 3 900 000,0 | |
| 1.11.7.1.2 | Yeni nəsil şəxsiyyət vəsiqələrinin, biometrik pasportların və lisenziya blanklarının çap edilməsi | 39 130 821,0 | 39 130 821,0 | |
| 1.11.7.1.3 | Böyükşor gölünün mühafizəsi və ətrafının abadlaşdırılması | 800 000,0 | 800 000,0 | |
| 1.11.7.2 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (Azərbaycan Respublikasının beynəlxalq kredit reytinqinin müəyyən olunması) | 600 600,0 | 600 600,0 | |
| 1.11.7.3 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti | 44 950 000,0 | 44 950 000,0 | |
| 1.11.7.3.1 | Dövlət əmlakının özəlləşdirilməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması | 27 750 000,0 | 27 750 000,0 | |
| 1.11.7.3.2 | Ölkə ərazisində yerquruluşu, torpaqların kadastrı işlərinin təşkili | 15 000 000,0 | 15 000 000,0 | |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdiril-miş xərclər | Yerli xərclər |
| 1 | 2 | 3 | 4 | 5 |
| 1.11.7.3.3 | Azərbaycan Respublikasında Ünvan Reyestrinin fəaliyyətini təmin edən informasiya sisteminin yaradılması | 1 000 000,0 | 1 000 000,0 | |
| 1.11.7.3.4 | "Qəbələ radiolokasiya stansiyasının inzibati təsərrüfat zonası və texniki mövqe" Məhdud Məsuliyyətli Cəmiyyəti | 1 200 000,0 | 1 200 000,0 | |
| 1.11.7.4 | Qeyri-neft məhsullarının ixracının təşviqi, stimullaşdırılması və bu qəbildən olan digər tədbirlər | 11 300 000,0 | 11 300 000,0 | |
| 1.11.7.5 | Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu | 87 500 000,0 | 87 500 000,0 | |
| 1.11.7.5.1 | Nizamnamə kapitalının artırılması (güzəştli ipoteka kreditlərinin maliyyələşdirilməsi) | 71 000 000,0 | 71 000 000,0 | |
| 1.11.7.5.2 | Sahibkarlıq subyektlərinin manatla aldıqları kreditlərə hesablanmış faizlərə görə subsidiyanın maliyyələşdirilməsi | 16 500 000,0 | 16 500 000,0 | |
| 1.11.7.6 | Azərbaycan İnvestisiya Holdinqi | 13 000 000,0 | 13 000 000,0 | |
| 1.11.7.7 | İqtisadi fəaliyyət sahələri üzrə maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 970 000,0 | 970 000,0 | |
| 1.11.7.8 | Xarici qrantlar hesabına həyata keçirilən layihələr | 3 500 000,0 | 3 500 000,0 | |
| 1.11.7.9 | Bir sıra dövlət müəssisələrində islahatların aparılması ilə bağlı texniki - iqtisadi əsaslandırmanın hazırlanması və güzəştlərə dair reyestrlərin yaradılması xərcləri | 5 000 000,0 | 5 000 000,0 | |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdiril-miş xərclər | Yerli xərclər |
| 1 | 2 | 3 | 4 | 5 |
| 1.11.7.10 | İqtisadi dəstək üzrə tədbirlərin maliyyə təminatı | 275 200 000,0 | 275 200 000,0 | |
| 1.11.7.10.1 | "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyəti | 37 000 000,0 | 37 000 000,0 | |
| 1.11.7.10.2 | Digər təşkilatlar və tədbirlər | 238 200 000,0 | 238 200 000,0 | |
| 1.11.7.11 | Kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 12 000 000,0 | 12 000 000,0 | |
| 1.11.7.12 | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsaitin ayrılması | 118 465 000,0 | 118 465 000,0 | |
| 1.11.7.13 | Dövlət zəmanəti verilmiş kreditlər üzrə faizlərin subsidiyalaşdırılması ilə bağlı xərclər | 12 000 000,0 | 12 000 000,0 | |
| 1.12 | Əsas bölmələrə aid edilməyən xərclər | 1 478 128 331,0 | 1 454 689 143,0 | 23 439 188,0 |
| 1.12.1 | Ehtiyat fondları | 585 000 000,0 | 585 000 000,0 | |
| 1.12.1.1 | Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondu | 475 000 000,0 | 475 000 000,0 | |
| 1.12.1.2 | Dövlət büdcəsinin ehtiyat fondu | 110 000 000,0 | 110 000 000,0 | |
| 1.12.2 | Məqsədli büdcə fondları | 290 000 000,0 | 290 000 000,0 | |
| 1.12.2.1 | "Avtomobil yolları" Məqsədli Büdcə Fondu | 290 000 000,0 | 290 000 000,0 | |
| 1.12.3 | Valyuta konvertasiyası | 4 000 000,0 | 4 000 000,0 | |
| 1.12.3.1 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 4 000 000,0 | 4 000 000,0 | |
| 1.12.4 | Əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 599 128 331,0 | 575 689 143,0 | 23 439 188,0 |
| 1.12.4.1 | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (fövqəladə halların nəticələrinin aradan qaldırılması) | 20 000 000,0 | 20 000 000,0 | |
| 1.12.4.2 | sosial-iqtisadi islahatlar və digər tədbirlər üzrə xərclər | 579 128 331,0 | 555 689 143,0 | 23 439 188,0 |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdiril-miş xərclər | Yerli xərclər |
| 1 | 2 | 3 | 4 | 5 |
| 1.12.4.2.1 | İnsan hüquqları üzrə Avropa Məhkəməsi qarşısında Azərbaycan Respublikasının maraqlarının müdafiəsi və həmin Məhkəmənin qərarlarının icrası, dövlət təltiflərinin hazırlanması | 3 989 143,0 | 3 989 143,0 | |
| 1.12.4.2.2 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 32 800 000,0 | 32 800 000,0 | |
| 1.12.4.2.2.1 | Xüsusi müdafiə olunan və digər sənədlərin çap edilməsi və onların dövriyyəsinə nəzarət sisteminin tətbiqi ilə bağlı tədbirlər | 14 000 000,0 | 14 000 000,0 | |
| 1.12.4.2.2.2 | İşlərin qiymətləndirilməsi üçün ekspertlərin cəlb edilməsi və informasiya idarəetmə sisteminin saxlanılması | 7 600 000,0 | 7 600 000,0 | |
| 1.12.4.2.2.3 | beynəlxalq mühasibat uçotu standartlarının tətbiqi | 1 200 000,0 | 1 200 000,0 | |
| 1.12.4.2.2.4 | məhkəmə qərarlarının icrası və digər sosial-iqtisadi tədbirlər | 10 000 000,0 | 10 000 000,0 | |
| 1.12.4.2.3 | Əsas bölmələrə aid edilməyən xidmətlər üzrə büdcədənkənar xərclər | 31 000 000,0 | 31 000 000,0 | |
| 1.12.4.2.4 | Ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin əmlakının, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığortası | 23 000 000,0 | 23 000 000,0 | |
| 1.12.4.2.5 | Əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 2 900 000,0 | 2 900 000,0 | |
| 1.12.4.2.6 | Dövlət ehtiyatlarının yaradılması | 30 000 000,0 | 30 000 000,0 | |
| 1.12.4.2.7 | Yaşayış məntəqələri ilə bağlı zəruri tədbirlərin maliyyələşdirilməsi | 10 000 000,0 | 10 000 000,0 | |
| 1.12.4.2.8 | Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 161 000 000,0 | 161 000 000,0 | |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdiril-miş xərclər | Yerli xərclər |
| 1 | 2 | 3 | 4 | 5 |
| 1.12.4.2.9 | Koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizə | 261 000 000,0 | 261 000 000,0 | |
| 1.12.4.2.10 | Şəhər və rayonlarda yerləşən səfərbərlik ehtiyatları anbarlarının, ehtiyat idarəetmə məntəqələrinin saxlanılması və digər tədbirlər | 23 439 188,0 | | 23 439 188,0 |

2. Müəyyən edilsin ki, bu Fərmanın 1.9.1.5-ci (Kənd təsərrüfatı sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.10.5.4-cü (Ətraf mühitin mühafizəsi sahəsi üzrə yaşayış məntəqələrinə aid olan kommunal təyinatlı infrastrukturların bərpası, yenidənqurulması və abadlaşdırılması), 1.11.3.2-ci (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri), 1.11.3.3-cü (İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası), 1.12.4.2.1-ci (İnsan hüquqları üzrə Avropa Məhkəməsi qarşısında Azərbaycan Respublikasının maraqlarının müdafiəsi və həmin Məhkəmənin qərarlarının icrası, dövlət təltiflərinin hazırlanması) və 1.12.4.2.8-ci (Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi) yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə dövlət büdcəsinin gəlirləri və xərcləri üzrə təsdiq olunmuş göstəricilərin yerinə yetirilməsinə nəzarət etsin;

3.2. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla:

3.2.1. bu Fərmanın 1.1.1.56-cı (Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.1.4.12-ci (Elm sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir), 1.2.1.4-cü (Müdafiə və milli təhlükəsizlik sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.2.5.2-ci (Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər), 1.3.1.9-cu (Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi), 1.11.7.10.2-ci (Digər təşkilatlar və tədbirlər), 1.12.4.2.7-ci (Yaşayış məntəqələri ilə bağlı zəruri tədbirlərin maliyyələşdirilməsi) və 1.12.4.2.9-cu (Koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizə) yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri həyata keçirsin;

3.2.2. bu Fərmanın 1.1.4.14-cü, 1.4.5.8-ci, 1.4.8.17-ci, 1.5.2.7-ci, 1.6.4.10-cu, 1.7.1.8-ci, 1.7.2.7-ci, 1.7.3.3-cü, 1.7.4.19-cu, 1.8.4.3-cü, 1.11.1.9-cu və 1.11.7.12-ci yarımbəndlərində nəzərdə tutulan vəsaitin (Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsaitin ayrılması) bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri həyata keçirsin;

3.3. bu Fərmanın 1.1.2.1-ci (Beynəlxalq və regional təşkilatlarla və maliyyə institutları ilə əməkdaşlıq), 1.1.2.3-cü (Beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlər), 1.1.2.4.2-ci (Beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlər), 1.1.3-cü (Xarici yardımlar), 1.1.6.1-ci (Yerli büdcələrə (bələdiyyələrə) verilən dotasiya) və 1.1.6.2-ci (Yerli büdcələrə (bələdiyyələrə) verilən subvensiya) yarımbəndlərində nəzərdə tutulan vəsaitin xərc istiqamətləri və tədbirlər üzrə bölgüsünü həyata keçirsin;

3.4. bu Fərmanın 1.1.2.2-ci (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları) yarımbəndində nəzərdə tutulan vəsaitin Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları üzrə manat və müvafiq xarici valyutalarda bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri həyata keçirsin;

3.5. bu Fərmanın 1.1.1.55-ci, 1.4.8.13-cü, 1.5.4.10-cu, 1.6.4.6-cı, 1.6.4.9-cu, 1.8.3.3-cü, 1.11.7.3.1-ci, 1.12.1.2-ci və 1.12.4.2.6-cı yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

3.6. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin, Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifləri əsasında, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən nərə balıq növünün süni artırılması, təbii populyasiyasının bərpası və qorunması, laboratoriyaların fəaliyyətinin təmin edilməsi, geoloji-kəşfiyyat, xəritəçəkmə, şəhərsalma və ərazilərin minalardan təmizlənməsi işlərini dövlət sifarişi kimi iki ay müddətində təsdiq etsin;

3.7. 2022-ci il və sonrakı üç il üçün ölkənin yanacaq-enerji balansını hazırlayıb altı ay müddətində təsdiq etsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

4.1. 2021-ci ilin dövlət büdcəsinə vergi və dövlət rüsumları üzrə nəzərdə tutulan daxilolmaların aylıq və rüblük bölgüsünü Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla 15 (on beş) gün müddətində təsdiq etsin;

4.2. 2021-ci ilin dövlət büdcəsinə tutulması dövlət gömrük orqanlarının səlahiyyətlərinə aid edilmiş vergilər və gömrük rüsumları üzrə nəzərdə tutulan daxilolmaların aylıq və rüblük bölgüsünü Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə razılaşdırmaqla 15 (on beş) gün müddətində təsdiq etsin;

4.3. bu Fərmanın 1.1.4.11-ci, 1.4.8.14-cü, 1.4.8.15-ci, 1.7.4.12-ci, 1.7.4.17-ci, 1.7.4.18-ci, 1.11.1.8-ci, 1.11.7.9-cu, 1.11.7.13-cü, 1.12.4.2.4-cü və 1.12.4.2.5-ci yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

4.4. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla:

4.4.1. bu Fərmanın 1.2.1.3-cü (Müdafiə və milli təhlükəsizlik sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər), 1.3.5.2-ci (Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanları üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər), 1.5.4.9-cu (Səhiyyə sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər), 1.6.4.5-ci (Sosial təminat sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər), 1.8.4.2-ci (Mənzil və kommunal təsərrüfatı sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər) yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri həyata keçirsin;

4.4.2. bu Fərmanın 1.1.1.57-ci, 1.1.4.13-cü, 1.2.1.5-ci, 1.3.5.3-cü, 1.4.8.16-cı, 1.5.4.11-ci, 1.6.3.1-ci, 1.7.4.20-ci, 1.9.4.1-ci, 1.10.6.1-ci, 1.11.7.7-ci və 1.12.4.2.3-cü yarımbəndlərində nəzərdə tutulan vəsaitin (dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri) gəlir və xərclər smetasının aidiyyəti təşkilatlar üzrə təsdiqini iki ay müddətində həyata keçirsin;

4.5. Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla, bu Fərmanın 1.11.7.11-ci (Kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri həyata keçirsin;

4.6. İcbari tibbi sığortanın ölkənin inzibati ərazi vahidləri üzrə tətbiqi ardıcıllığına uyğun olaraq əhalinin sayına müvafiq hesablanmış sığorta haqqının, habelə “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 16-4.1-ci maddəsinə əsasən icbari tibbi sığortanın mərhələli tətbiqini nəzərə alaraq, icbari tibbi sığorta ilə əhatə olunmayan inzibati ərazi vahidlərinin səhiyyə xərclərinin bu Fərmanın 1.5.4.10-cu yarımbəndində nəzərdə tutulmuş vəsait hesabına maliyyələşdirilməsini təmin etsin;

4.7. “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu, 13-cü və 14-cü maddələrindən irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etsin;

4.8. “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun 12-ci maddəsi ilə təsdiq edilmiş daxili və xarici borcalmanın, il ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) çərçivəsində bazar konyunkturundan asılı olaraq milli və xarici valyutada borcalmanın, o cümlədən dövlət istiqrazlarının buraxılışının həyata keçirilməsi üçün tədbirlər görsün.

5. Azərbaycan Respublikasının Dövlət Neft Fondu Azərbaycan Respublikası Dövlət Neft Fondundan dövlət büdcəsinə nəzərdə tutulan transfertin yuxarı həddinin aylıq və rüblük bölgü əsasında həyata keçirilməsini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə əlaqələndirməklə təmin etsin.

6. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi bu Fərmanın 1.7.4.10-cu (Qeyri-dövlət təşkilatlarına verilən maliyyə yardımı) yarımbəndində nəzərdə tutulan vəsaitin aidiyyəti təşkilatlar arasında bölgüsünü 20 (iyirmi gün) müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin və maliyyələşdirməni təmin etsin.

7. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

7.1. bu Fərmanın 1.11.7.1.1-ci (Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələrinin saxlanılması) yarımbəndində nəzərdə tutulan vəsaitin ticarət nümayəndələri üzrə bölgüsünü və həmin bölgüdə ediləcək dəyişiklikləri Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin;

7.2. bu Fərmanın 1.11.7.4-cü (Qeyri-neft məhsullarının ixracının təşviqi, stimullaşdırılması və bu qəbildən olan digər tədbirlər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin;

7.3. bu Fərmanın 1.11.3.2-ci (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsü ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.4. 2021-ci il dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsi ilə bağlı özəlləşdirmədən daxilolmalar üzrə nəzərdə tutulmuş vəsaitin tam məbləğdə büdcəyə təmin edilməsi üçün təsirli tədbirlər görsün;

7.5. növbəti illər üçün dövlət büdcəsinin gəlirlərinin proqnozlaşdırılması məqsədilə:

7.5.1. 2020-ci ildə əlavə dəyər vergisi ödəyiciləri üzrə (fəaliyyət göstərdikləri şəhər və rayonlar göstərilməklə) hesablanmış, azaldılmış və dövlət büdcəsinə daxil olmuş vergilərə dair məlumatları 2021-ci ilin aprel ayının 1-dək;

7.5.2. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan xidmətləri və hüquqi hərəkətləri həyata keçirən ayrı-ayrı dövlət orqanları üzrə dövlət büdcəsinə təmin edilmiş dövlət rüsumuna dair aylıq məlumatları hesabat ayından sonrakı ayın 20-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin.

8. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Fərmanın 1.1.2.4.1-ci (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti ilə bağlı digər xərclər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü bir ay müddətində həyata keçirsin.

9. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi “Azərsu” Açıq Səhmdar Cəmiyyəti ilə razılaşdırmaqla bu Fərmanın 1.10.5.3-cü (Su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı bələdiyyələrə verilən maliyyə yardımı) və 1.10.5.5-ci (Ətraf mühitin mühafizəsi sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirləri) yarımbəndlərində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin və maliyyələşdirməni təmin etsin.

10. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi bu Fərmanın 1.11.1.7-ci (Nəqliyyat və rabitə sahələrində islahatların aparılması və digər tədbirlərin maliyyələşdirilməsi) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla həyata keçirsin və maliyyələşdirməni təmin etsin.

11. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu Fərmanın 1.11.3.4-cü (Müfəssəl ərazi planlaşdırılması sənədlərinin hazırlanması) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü həyata keçirsin.

12. Azərbaycan Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları, büdcədən maliyyələşən və maliyyə yardımı alan təşkilatlar və digər dövlət orqanları maliyyə intizamının gücləndirilməsi, israfçılığa, izafi xərclərə yol verilməməsi və büdcə vəsaitindən qənaətlə istifadə olunması istiqamətində təsirli tədbirlər görsünlər.

13. Müəyyən edilsin ki:

13.1. “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun 2.14-cü, 5.2-ci (birinci halda) və 16-cı maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir, “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Dövlət Neft Fondu nəzərdə tutulur;

13.2. həmin Qanunun 3-cü, 3.1-ci, 5.1-ci, 5.2-ci (ikinci halda), 7.12.2.1-ci və 9-cu (hər iki halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir, “məqsədli büdcə fondu” dedikdə “Avtomobil yolları” Məqsədli Büdcə Fondu nəzərdə tutulur;

13.3. həmin Qanunun 10-cu maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir, “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur.

14. Bu Fərmanın 1-ci hissəsi 2021-ci il yanvarın 1-dən qüvvəyə minir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2020-ci il.